

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 114 (23.276)

*22 iyun 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzi fəaliyyətə başlamışdır



İyunun 21-də Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək demişdir ki, son illər istifadəyə verilən yeni inzibati və yaşayış binaları, xidmət sahələri, salınan park və küçələr qədim Naxçıvan şəhərinin simasını tamamilə dəyişmişdir. Əhalinin yaşayışı, məşğulluğu və istirahətinin səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər görülmüş, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlamışdır. Bu il də Naxçıvan şəhərində quruculuq işləri davam etdirilir, yeni yaşayış kompleksi və inzibati binalar, xidmət sahələri tikilir, parklar salınır, mövcud yaşayış binaları yenidən qurulur. İstifadəyə verilən “Saat Meydanı” da bu sahədə görülən işlərin davamıdır. Mirsənani Seyidov “Saat Meydanı”nın yeni iş yerlərinin açılması, sakinlərin və turistlərin rahatlığının təmin olunması ilə yanaşı, həm də Naxçıvan şəhərinin arxitektura quruluşunu zənginləşdirdiyini bildirmiş, bütün bunlara görə Naxçıvan şəhər ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Hər bir ölkənin həyatında turizm xüsusi yer tutur. Müasir dövrdə ölkələr turizmin inkişafında, daha çox turist cəlb etməklə ümumi inkişafın təmin olunmasında maraqlıdırlar. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Tarixi və dini turizmin, ekoturizmin, dağ turizmin, mədəni və sağlamlıq turizminin inkişafı sahəsində mühüm işlər görülmüşdür. Artıq Naxçıvan həm də turizm mərkəzinə çevrilmişdir. Bu il Londonda nəşr olunan “Wanderlust” jurnalında da Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzindən biri kimi qeyd olunmuşdur.



Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada turizmin bütün sahələri üzrə qonaqlar qəbul edilir. Turistlərin istirahəti səmərəli təşkil olunur, onlar yaradılan şəraitdən istifadə edərək Naxçıvan, ümumilikdə isə Azərbaycan haqqında xoş fikirlərini bildirirlər. Turizmin inkişafında ən vacib məsələlərdən biri də xidmət sahəsidir. Çünki xidmət sahəsi olmadan turizmi inkişaf etdirmək mümkün deyil. Bu gün istifadəyə verilən “Saat Meydanı” da yeni xidmət sahəsi kimi turizmin inkişafına böyük dəstək olacaqdır. Həmçinin yeni fəaliyyətə başlayan turistik məkanda yüzdən artıq iş yeri açılmış, gənclər işlə təmin olunmuşlar. Bu da məşğulluğun təmin olunmasına töhfə verir.



Qeyd olunmuşdur ki, xidmət sahələrində dünyanın müxtəlif ölkələrinin mətbəxləri, eyni zamanda milli mətbəx nümunələri turistlərə və sakinlərə təqdim olunacaqdır. Müasir formada qurulan meydanda isə gənclərin asudə vaxtları səmərəli təşkil olunacaq, müxtəlif tədbirlər keçiriləcəkdir. Ona görə də kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, turistlərə və sakinlərə nümunəvi xidmət göstərilməlidir. Çünki xidmətin düzgün təşkili əlavə turist cəlbinə və yeni xidmət sahələrinin yaranmasına şərait yaradacaqdır.

Ali Məclisin Sədri kollektivə işlərində uğurlar arzulamış, əməyi olanlara təşəkkürünü bildirmiş və yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, klassik və milli memarlıq üslubunda inşa olunmuş “Saat Meydanı” 2 mərtəbəli binadan, 21 metrlik saat qülləsindən və meydandan ibarətdir. 2 girişi olan binada 5 dükan, uşaq əyləncə bölməsi, gənclər üçün intellektual oyun zalı, otel, 4 zaldan ibarət 125 yerlik kinoteatr, 4 restoran və 2 kafe yerləşir. Burada sakinlərə və turistlərə Naxçıvan, eləcə də Türkiyə, Çin, gürcü, yapon və ingilis mətbəxlərinin nümunələri təqdim olunur. Geyim dükanlarında dünya firmalarının məhsulları alıcılara təklif edilir.

Kinoteatrda “CinemaPlus” kinoteatrlar şəbəkəsi tərəfindən ən yeni dünya və yerli filmlər nümayiş olunacaqdır. 3D texnologiyası, rəqəmsal kinoproyektorlar, müasir işıq və səs sistemləri filmləri yüksək keyfiyyətdə təqdim etməyə imkan verəcəkdir.

Baxış zamanı ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunmuşdur.

Ali Məclisin Sədri kinoteatrda milli mentalitetimizə uyğun filmlərin nümayiş olunması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və keyfiyyətli xidmət göstərilməsi barədə tapşırıqlar vermişdir.

Oteldə 43 standart, 4 suit və 1 vip olmaqla, 48 otaq vardır. Burada turistlərin rahatlığı üçün bütün lazımi şərait yaradılmışdır.

Meydanda konsert səhnəsi və fəvvarə qurulmuşdur. Saat qülləsində isə xidmət sahələri yaradılmış, kafe və mütaliə zalı istifadəyə verilmiş, kitablar qoyulmuş, “Oxunması zəruri olan kitablar”dan ibarət guşə yaradılmışdır. Bütün xidmət sahələri müasir soyutma, istilik, yanğından mühafizə və videonəzarət sistemləri ilə təchiz olunmuş, ərazidə 100 yerlik dayanacaq yaradılmış, oturacaqlar qoyulmuş, dekorativ ağac və güllər əkilmişdir.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda müasir dövlət qulluğu sistemi formalaşdırılıb

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur.*

Ölkəmizdə dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə gəlişi ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ulu öndərimizin təşəbbüsü və müəllifliyi ilə hazırlanan ilk milli Konstitusiya müasir dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasının hüquqi bazası rolunu oynamışdır.

Dövlət qulluğunda səmərəliliyin artırılması, dövlət aparatının təkmilləşdirilməsi, dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsi, onların sosial müdafiəsinin, maddi müstəqilliyinin təmin edilməsi və eyni zamanda məsuliyyətlərinin artırılması məqsədilə 2000-ci il 21 iyul tarixdə respublikamızda ilk dəfə olaraq "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində qəbul olunmuş ilk qanunun çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, qanunun qəbul edilməsi ilə Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşmasının əsası qoyulmuş, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri müəyyənləşdirilmişdir. Qanunda dövlət qulluğu və dövlət qulluqçusu anlayışlarının mahiyyəti göstərilmiş, dövlət qulluğunun prinsipləri, habelə dövlət qulluqçularının hüquq və vəzifələri öz əksini tapmışdır. Qanunun qəbulundan sonra onun icrasını təmin etmək və tətbiqi mexanizmini yaratmaq üçün çoxsaylı normativ-hüquqi aktlar qəbul olunmuşdur. Həmçinin dövlət qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi, dövlət qulluqçularının icbari sığortası, hakimiyyət səlahiyyətlərinin icrasına, qulluq stajına, ixtisas dərəcələrinə görə vəzifə maaşına əlavə haqqın verilməsi kimi məsələlər nizama salınmış, inzibati və yardımçı vəzifələrin təsnifat toplusu təsdiq edilmişdir.

Ümummilli liderin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmış, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi bunun bariz ifadəsidir.



Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmış, müasir dövlət idarəçilik sistemi formalaşdırılmışdır. Həyata keçirilən islahatları iki qrupa ayırmaq olar. Birinci istiqamət dövlət qulluğu sahəsində institusional islahatların həyata keçirilməsi ilə bağlı olmuşdur. Bu məqsədlə qanunvericiliklə müəyyən edilmiş dövlət siyasətini və tənzimlənməni həyata keçirən dövlət orqanları yaradılmış və onların normal fəaliyyət göstərməsi təmin olunmuşdur. Dövlət idarəçiliyində innovasiyalar tətbiq edilmiş, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil edilmişdir. Bütün bunlar, eyni zamanda Naxçıvan Muxtar Respublikasında vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinə və insan amilinə verilən dəyərin göstəricisidir. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi muxtar respublikanın rəhbəri tərəfindən dövlət qulluğu sahəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bu sahədə görülən işlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 dekabr tarixli Fərmanı ilə muxtar respublikada dövlət qulluğunun normativ-metodik təminatını həyata keçirən, dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ-hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlayan, dövlət hakimiyyəti orqanlarının işini əlaqələndirən qurum – Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğu İdarəetmə Şurası yaradılmışdır.

Dövlət qulluğu sahəsində islahatların ikinci istiqaməti isə müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsidir. Kadr siyasətinin əsas məqsədi dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və Vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsidir. Qeyd edilən məqsədlərə nail olmaq üçün muxtar respublikada yeni məktəb binaları, tədris korpusları tikilmiş, təhsil müəssisələrində tədris müasir standartlara uyğunlaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, mütəxəssis və kadrların hazırlığı üçün hərtərəfli şərait yaradılmışdır. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Ali Məclis Sədrinin 2015-ci il 27 iyul və 2019-cu il 3 aprel tarixli sərəncamları dövlət orqanları və təhsil müəssisələri arasında əlaqələrin genişlənməsinə, insan kapitalının inkişafına, dövlət qurumlarının ixtisaslı kadrlarla təmin edilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması həyata keçirilən islahatların ən vacib tərkib hissəsidir. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin həyata keçirilməsi, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə yolu ilə seçilməsi, yerləşdirilməsi və digər məsələlər barəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Fəaliyyətə başladıqdan qısa müddət sonra komissiya üçün yeni inzibati binanın tikilməsi, test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin yaradılması komissiyanın fəaliyyətində innovasiya və startapların tətbiqini mümkün etmiş, test imtahanı proqramı, Dövlət Qulluqçuları Reyestrinin aparılması proqramı, test və müsahibələrdə iştirak üçün onlayn qeydiyyat proqramı istifadəyə verilmişdir. Komissiyanın portalının və yeni proqram təminatının istifadəyə verilməsi vətəndaşların dövlət qulluğuna qəbulla əlaqədar müraciət etmək imkanlarının asanlaşdırılmasına, eləcə də rayonlarda yaşayan şəxslərin sənəd təqdim etməsi üçün mərkəzə gəlməsinin və bunun nəticəsində yaranan vaxt və maliyyə itkisinin qarşısının alınmasına, əlavə sənəd təqdim etmədən "şəxsi kabinet" vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibə mərhələlərində iştirakına imkan yaratmışdır.

Bu gün vətəndaşların muxtar respublikada dövlət qulluğuna müsabiqə və şəffaflıq əsasında qəbulu üçün lazımi şərait mövcuddur. Komissiyanın yaradılması məşğulluq strategiyasının həyata keçirilməsinə öz müsbət töhfəsini vermişdir. Belə ki, komissiya tərəfindən indiyədək keçirilmiş 17 müsabiqədə 5529 namizəd iştirak etmiş, onlardan 1144-ü müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının 40 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış, müasir dünyagörüşə malik, işgüzar, savadlı, bacarıqlı, qanunvericilik və informasiya texnologiyaları üzrə bilikləri, habelə məntiqi düşüncə qabiliyyəti olan dövlət qulluqçularıdır. Komissiyanın keçirdiyi müsabiqələr nəticəsində məsləhətçi vəzifəsinə təyin olunmuş şəxslərdən bir qismi öz vəzifələrini uğurla yerinə yetirərək dövlət qulluğunda irəli çəkilmiş, 1 nəfər nazir, 1 nəfər nazir müavini, 2 nəfər İcra Hakimiyyəti başçısının müavini, 1 nəfər xidmət rəisinin müavini, 3 nəfər mərkəzi icra hakimiyyəti orqanının yerli bölməsinin rəhbəri, 1 nəfər idarə rəisinin müavini, 18 nəfər şöbə müdiri, 7 nəfər şöbə müdirinin müavini və 30 nəfər sektor müdiri vəzifələrinə təyin olunmuşdur. Bütün bunlar müdrik, gələcəyə hesablanmış kadr siyasətinin məntiqi nəticəsidir.

Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar, Vergilər nazirlikləri, muxtar respublika Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidmətində vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün keçirilmiş 39 müsabiqədə iştirak edən 1905 namizəddən 593-ü test imtahanlarında müvafiq keçid balını toplamışdır.

Dövlət orqanlarına metodik köməklik də göstərilir və dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Hər il məhkəmə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün etik davranış qaydalarına riayət olunması, kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları və digər mövzularda keçirilən seminarlarda yüzlərlə inzibati vəzifə tutan dövlət qulluqçusu iştirak edir.

Dövlət Qulluqçuları Reyestrinin məlumatlarına əsasən muxtar respublikada 61 siyasi, 1976 inzibati və 508 yardımçı vəzifə olmaqla, ümumilikdə, 2545 dövlət qulluqçusu vardır ki, onların da 27 faizini gənclər, 24 faizini isə qadınlar təşkil edir.

Yuxarıda qeyd olunanlar, habelə keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və vətəndaşların, xüsusilə gənclərin dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növünə aid orqanlara marağı artır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də öz intibah dövrünü yaşayır. Bütün uğurların təməlində isə ümummilli lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

***Bu gün Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmış, dövlət qulluqçuları diqqət və qayğı ilə əhatə olunmuşdur. Hər bir dövlət qulluqçusu göstərilən qayğının müqabilində öz vəzifə səlahiyyətlərinə vicdanla yanaşmalıdır. Dövlət qulluqçusu unutmamalıdır ki, o, öz funksiyalarını icra edərkən, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Əminik ki, hər bir dövlət qulluqçusu dövlət qulluğunun ona verdiyi hüquqları və üzərinə qoyduğu vəzifələri yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcək, Heydər Əliyev ideyalarına, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəkdir.***

**İsmayıl QƏRİBLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri, Naxçıvan Muxtar Respublikası Dövlət Qulluğu İdarəetmə Şurası sədrinin müavini***

# "Sabahın müəllimi" layihəsi çərçivəsində tədbirlər davam edir



*"Sabahın müəllimi" layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində pedaqoji profilli ixtisasların buraxılış kurs tələbələri ilə görüş keçirilib. Məzunlar ümumtəhsil məktəblərində vakant müəllim yerləri ilə tanış ediliblər.*

Universitetin prorektoru, dosent Rafiq Rəhimov çıxış edərək bildirib ki, müəllim təcrübəsinin paylaşılması və məzunların işlə təmin edilməsindən ibarət olan yeni layihə muxtar respublikada innovativ təcrübəli müəllim kadrların hazırlanmasına müsbət təsir göstərəcək.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov qeyd edib ki, "Sabahın müəllimi" layihəsinə uyğun olaraq muxtar respublikada gənc kadrların işlə təminatı diqqətdə saxlanılır. "Naxçıvan Muxtar Respublikasında müəllimlərin ümumtəhsil müəssisələrinə işə qəbul qaydaları"na əsasən bu proses müsabiqə yolu ilə həyata keçirilir.

Sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Abdulla Əsgərov pedaqoji profilli ixtisasların buraxılış kurs tələbələrinə slaydlar vasitəsilə muxtar respublikanın ümumtəhsil məktəblərində olan vakant müəllim vəzifələri, müəllimlərin ümumtəhsil müəssisələrinə işə qəbul qaydaları, gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər haqqında geniş məlumat verib.

O, muxtar respublikamızın bütün bölgələrində gənc kadrlar üçün yaradılan şəraitə, müəllim əməyinə verilən yüksək qiymətə və göstərilən qayğıya görə həmkarları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

# Subbakalavrların qəbulu ilə bağlı maarifləndirici tədbir

***İyunun 21-də Naxçıvan Dövlət Texniki Kollecində Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparat rəhbəri Rəşad Əlizadə qeyd edib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli Qərarı ilə təsdiq edilmiş qaydalara əsasən subbakalavrlar ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə müvafiq ixtisaslar üzrə qəbul imtahanlarında iştirak etmədən müsabiqə yolu ilə qəbul oluna bilərlər.

2019-2020-ci tədris ili üzrə tələbə qəbulu zamanı tətbiq ediləcək qaydalar haqqında ətraflı məlumat verən Rəşad Əlizadə bildirib ki, ərizələrin qəbulu I-IV qrup üzrə 2019-cu il iyunun 13-dən iyulun 17-dək, V ixtisas qrupu üzrə isə iyunun 13-dən 27-dək Dövlət İmtahan Mərkəzinin internet saytında aparılır və müsabiqədə iştirak ödənişsizdir. Subbakalavrlar cari ildə imtahan verərək ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən abituriyentlərlə eyni vaxtda – iyulun 24-dən avqustun 6-dək ixtisas seçimində iştirak edəcəklər. İxtisas seçimi zamanı bir yerə, eyni zamanda abituriyent və subbakalavr olmaqla, iki nəfər iddia edərsə, bu zaman həmin yerə abituriyent qəbul olunacaqdır. Bir yerə iki subbakalavr iddia edərsə, ixtisas seçimində təhsil haqqında sənəddə fənlər üzrə yekun qiymətlərinin ədədi ortası daha yüksək olan subbakalavra üstünlük veriləcəkdir.

Tədbirdə Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov çıxış edib, məzunları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Təhsil bütün dövrlərdə cəmiyyət həyatının inkişafını təmin edən, onu irəliyə aparan amil olub. Çünki biliksiz cəmiyyətlər tarixin qaranlıq küncünə yuvarlandığı kimi, intellektli cəmiyyətlərin də daim inkişaf etdiyini bu gün kimsə sübut etməyə ehtiyac yoxdur. Müasir dövrdə isə qloballaşan dünyada insan zəkasının səyi nəticəsində qazanılan nailiyyətlər elm və təhsili hərtərəfli inkişafın təkzibolunmaz dayağına çevirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır".***

# Mütərəqqi tədris sistemi

## *Sağlamlıq imkanları məhdud övladlarımızın da özlərini cəmiyyətə yararlı hesab etmələri üçün hər cür şərait yaradılıb*



Bu gün Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafına böyük diqqət və qayğı göstərilir. Maddi dəyərlərin insan kapitalına çevrilməsi prinsipi muxtar respublikamızda həyata keçirilən təhsil quruculuğu tədbirlərinin əsasını təşkil edir. Onu da xatırladaq ki, ötən əsrin 90-cı illəri bu günümüzlə müqayisəolunmaz dərəcədə acınacaqlı idi. Bugünkü gəncliyin valideyn və müəllimlərindən, həmin dövrə aid mətbuat və ədəbiyyat səhifələrindən də öyrəndiyi kimi, blokada vəziyyətinə salınmış Naxçıvanda digər sahələrlə yanaşı, təhsilin də vəziyyəti ürəkaçan deyildi. Sovet dövrünün yadigarı olan məktəb binalarının yararsız hala düşməsi, maddi-texniki bazanın yetərli səviyyədə olmaması, yanacaq və enerji çatışmazlığından istilik problemlərinin baş alıb getməsi təkcə şagirdləri deyil, maddi təminatı çox-çox aşağı olan müəllimləri də məktəbdən didərgin salmışdı. Qışın soyuq günlərində bölüşdürülən məhdud yanacaq hesabına neft sobası ilə qızdırılmağa çalışılan sinif otaqlarında oturmaq əsl məşəqqət idi.



Təbii ki, belə bir vəziyyətdə təhsilin səviyyəsindən danışmaq yersiz idi. O ki qala həmin dövrdə bu yazıda haqqında bəhs edəcəyimiz sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasına. Bu hətta xəyal belə, edilə bilməzdi. Lakin tarix dəfələrlə sübut edib ki, hər bir ölkənin, bütövlükdə isə cəmiyyətlərin xilası yalnız uzaqgörən, xalqını sevən, onun gələcəyi üçün bütün çətinliklərə sinə gərərək qətiyyətli addımlar atan liderlərə əsaslanıb.

Bizim də xoşbəxtliyimiz ondadır ki, xalqımızın ümummilli lideri Heydər Əliyev həmin ağır və mürəkkəb dövrdə bütün çətinliklərə addım-addım sinə gərərək ölkəmizi, eləcə də onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasını mübarizə meydanlarından qalib çıxarıb. Ulu öndərin dahi ideyalarının layiqincə davam etdirilməsi nəticəsində qədim Naxçıvan tarix üçün çox qısa sayılan bir dövrdə, həm də blokada şəraitində inkişaf edərək özünün yeni tərəqqi dövrünə qədəm qoyub. Bu tərəqqi və yüksəliş dövründə milli təhsilimizin müasir dünya standartlarına uyğun inkişafı isə göz qabağındadır. Son 20 ildən artıq bir dövrdə muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri içərisində təhsil müəssisələrinin yenilənməsi və ya yeni məktəb binalarının tikintisi xüsusi yer tutur. İndiyədək 200-dən çox təhsil müəssisəsinin müasir tələblərə uyğun tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi, onların müasir avadanlıq, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi, buna paralel olaraq təhsildə yeni islahatların aparılması ötən dövrdə muxtar respublikada bu sahənin keçdiyi böyük inkişaf yolundan xəbər verir.

Təbii ki, sağlam və savadlı insan hər bir cəmiyyət üçün ən dəyərli sərvətdir. Belə bir sərvəti qazanmaq isə hərtərəfli inkişafı prioritet qəbul etmiş ölkələr üçün mühüm şərtdir. Vətəndaşına dəyər verilən, insan amilinin yüksək tutulduğu belə cəmiyyətlərdə sağlamlıq imkanları məhdud insanların, xüsusilə bu qəbildən olan uşaqların cəmiyyət həyatına inteqrasiyası məxsusi əhəmiyyət daşıyır. Diqqət yetirsək, görərik ki, muxtar respublikamızda fiziki imkanları məhdud olan uşaqların reabilitasiyası, onların təhsilə cəlbi istiqamətində çox böyük işlər görülüb.

***"Yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər"****,* – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən dövrdə təhsilin inkişafı ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb və bu sərəncamların icrasında məhdud fiziki imkanlıların təhsilə cəlbi də öz əksini tapıb. Belə dövlət sənədləri içərisində isə Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır. 2014-cü il oktyabrın 1-də istifadəyə verilən bu mərkəz, sözün həqiqi mənasında, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyət həyatında iştirakı üçün əsl məbəd rolunu oynayır. Burada mərkəzi server və çevirici avadanlıqların quraşdırılması, tədris sinfinə intellektual-elektron lövhə, kompüter, smartkamera, monitor və digər texniki vasitələrin qoyulması bu qəbildən olan uşaqların distant təhsilə cəlb olunmasına geniş imkanlar açmışdır. Eyni zamanda tədris mərkəzində audio və elektron kitabxanaların fəaliyyəti, Brayl əlifbası ilə çap olunmuş dərsliklər, eləcə də digər ədəbiyyat və jurnallar da sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya olunması naminə atılan mühüm addımlardır.

Hazırda muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində daha bir mühüm dövlət proqramı icra olunur. Belə ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqların tədris prosesinə cəlb olunması işləri daha geniş şəkildə həyata keçirilir. Bu sahədə atılan ən mütərəqqi addım isə distant tədris sisteminin tətbiq edilməsidir. Bu məqsədlə onların yaşadıqları mənzillərə yüksəksürətli internet xətləri çəkilir, müvafiq texniki avadanlıqlar quraşdırılır. Bir sözlə, məktəb dərsə gedə bilməyən fiziki qüsurlu uşaqların "evlərinə gəlir". Fikrimcə, insan amilinə verilən yüksək dəyərin bundan daha mükəmməl ifadəsi yoxdur.

Bəs hazırda bu qəbildən olan uşaqlar onlar üçün yaradılmış distant təhsilin imkanlarından necə yararlanırlar? Bu məqsədlə yaxın günlərdə Kəngərli, Şərur və Sədərək rayonlarında yaşayan sağlamlıq imkanları məhdud uşaqların evlərinə üz tutmağı qərara aldım. Distant təhsilə cəlb edilən uşaqların 23 nəfərdən ibarət siyahısına göz gəzdirib yola düzəldim.

Səhər saatlarında Naxçıvan-Sədərək avtomobil yolu ilə mənim qeyd etdiyim ünvanlara aparan avtomobilin pəncərəsindən ətrafdakı gözəllikləri seyr edərək düşünürdüm: Bir-biri ilə yarışa girən müasir və abad yaşayış məntəqələri, rəngarəng təbiət mənzərələri, insan əlinin gözəlliklər bəxş etdiyi yamyaşıl düzlər, çağlayaraq bu yaşıllıqlara həyat verən su xətləri, bar vermiş ağaclarda budaqdan-budağa adlayaraq bahar nəğməsi oxuyan quşlar... Bütün bunlar insanda həyat eşqini coşduran gözəlliklərdir. Bu gözəllikləri görmək, duymaq, doya-doya yaşamaq və hətta belə gözəl cəmiyyətdə hansısa bir fəaliyyətlə məşğul olub öz doğma yurdunun daha da gözəlləşməsinə çalışmaq isə hər bir insanın haqqıdır. Fiziki imkanlarından asılı olmayaraq... Nə yaxşı ki sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində çox mühüm işlər görülən bir diyarda yaşayırıq...

İlk baş çəkdiyimiz ünvana çatmağımız məni bu gözəl duyğulardan müvəqqəti də olsa, ayırdı. Söhbətləşdiyim uşaqlardan yaşca ən böyüyü olan Maisə Seyidovagildəyik. Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşayan Maisə 2002-ci ildə anadan olub. Ancaq səhhətindəki anadangəlmə problemlərə görə sərbəst yeriyə bilmir. Yaşıdları kimi oxumaq, yazmaq istəsə də, bu arzusunu yalnız 2016-cı ildən reallaşdıra bilib. Belə ki, distant tədris mərkəzində qeydiyyatdan keçdikdən sonra aidiyyəti qurumlar tərəfindən yaşadığı mənzilə internet xətti çəkilib, kompüter dəsti quraşdırılıb.



Xəstəlik onun gəzmək arzusunu məhdudlaşdırsa da, ruhən sarsıda bilməyib. Dövlətimizin diqqət və qayğısı ilə o da cəmiyyətin fəal bir nümayəndəsinə çevrilib. Onun dediklərindən: "Təhsil almaq ən böyük arzum olub. Fiziki imkanım olmadığına görə kiçik yaşlarımdan bunu yalnız xəyal etmişəm. Sağ olsun, dövlətimiz, mənim kimi uşaqların xəyalını reallığa çevirib. Çox sevincliyəm ki, mən də təhsil ala bilirəm. Mövcud şərait məndə tam qənaət yaratdı ki, təhsil almaq üçün sırf məktəbə yollanmaq şərt deyil. Sözün açığı, məktəbə getmirəm də deyə bilmərəm. Çünki məktəbi öz evimdəymiş kimi hiss edirəm. Bu sevinci mənə və valideynlərimə bəxş edənlər sağ olsun! Bizim üçün keçilən dərslərdə hər dəfə maraqla iştirak edirəm. Müəllimlərimizdən də razıyam, çox həvəslə öyrədirlər. Bizə diqqət və qayğısını əsirgəməyən müəllimlərimin əməyi sayəsində çox şey öyrənmişəm. Hər zaman yaxşı qiymətlərlə oxumağa çalışıram. Arzum budur ki, dövlətimizin bizə göstərdiyi bu etimadı doğruldam".

Həmin rayonun Yeni Kərki kəndində yaşayan 12 yaşlı Fidan Babayeva isə 2016-cı ildən mərkəzin tədris proqramına cəlb olunub. Uşaqlıqda beyin iflici keçirmiş balaca qəhrəmanımız distant dərslərin sayəsində özünü xeyli təkmilləşdirib. Artıq saymağı bacarır, sadə riyazi çalışmaları sərbəst həll edir. Oxumağı və yazmağı da yetərincə mənimsəyib. Bu, təbii ki, hər kəsdən çox valideynlərini sevindirir. Onlar böyük minnətdarlıq hissi ilə qeyd etdilər ki, dərs günləri gəldikdə Fidanın sevincinin həddi-hüdudu olmur. Yeni dərsləri öyrənməkdən, müəllimi ilə ünsiyyətdə olmaqdan zövq alır.



Şərur rayonunun Danyeri kəndində isə fərqli ailələrdə yaşayan iki balaca qəhrəmanımızla tanış oluruq. Sadiq Həsənli 13 yaşındadır. Anası Günel xanım bizimlə söhbətində bildirir ki, serebral iflic xəstəliyindən əziyyət çəkən, həm hərəkət qabiliyyətinin məhdudluğu, həm də nitq qüsuru olan oğlunun taleyindən əvvəllər çox nigaran olublar. Lakin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant tədrisə cəlb olunduqdan sonra onda xeyli irəliləyişlər müşahidə edilir. Belə ki, Sadiq artıq nisbətən sərbəst danışmağı öyrənib. Eyni zamanda yazmaq vərdişlərini də xeyli təkmilləşdirib. Distant təhsilin övladının həyatında böyük rol oynadığını bildirən Günel xanım indi gələcəyə daha ümidlə baxdığını qeyd edir və yaradılmış şəraitə görə ailə üzvləri adından minnətdarlığını bildirir.



8 yaşlı İldırım Cəfərov da həmkəndlisi kimi iflic xəstəsidir. Kiçik yaşlarından sərbəst hərəkət qabiliyyətinin məhdudluğu, nitq qüsuru olan İldırım müvafiq müalicələrə və distant təhsilə cəlb olunduqdan sonra onda müəyyən irəliləyişlər nəzərə çarpır. Belə ki, valideynlərinin dediyinə görə, o, sadə sözləri tələffüz edir, ədədləri sərbəst saymağı bacarır. Hətta toplama və çıxma əməliyyatlarını da yerinə yetirir.



Oxumağa böyük həvəs göstərən İldırım evdə daim dərsləri ilə məşğul olur, yaşıdları kimi daha çox öyrənmək istəyir. Digər sağlamlıq imkanları məhdud uşaqlar kimi, o da müvafiq məktəbli forması və dərs ləvazimatları ilə təmin olunub. Bir neçə dəqiqə əvvəl həmsöhbət olduğum Fidanın dedikləri yadıma düşdü: "Məktəbi evimdə hiss edirəm". Hər kəsin üzərində gəzdirdiyi məktəbli formasını geyinmək, müəllimlərlə ünsiyyətdə olmaq, dərslərə çalışmaq və verilən tapşırıqları həll etmək. Tədris üçün başqa nəyəsə ehtiyac varmı?

Öyrənirik ki, dövlət tərəfindən onlara daim böyük qayğı göstərilir. Ev şəraitində yalnız ailənin daxili imkanları hesabına övladının bu cür müsbət nəticələr əldə etməsinin mümkün olmadığını deyən valideynlər yaradılan şəraitdən razılıqlarını bildirirlər.

Sədərək rayonunun eyniadlı kəndində yaşayan Quliyevlər ailəsində isə sağlamlıq imkanı məhdud 9 yaşlı Nurgül Quliyeva aprel ayından distant təhsilə cəlb edilib. Bu məqsədlə onun yaşadığı mənzilə rabitə və internet xətləri çəkilib, müvafiq texniki avadanlıqlar quraşdırılıb. Təbii ki, balaca Nurgül də zəruri dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi ilə təmin olunub, ona tədris prosesinin gedişinə uyğun müvafiq təlimatlar verilib. İndiyədək Nurgülün ölkə xaricində tibbi müayinəsi də təşkil olunub. Həmçinin Naxçıvan Uşaq Bərpa Mərkəzində mütəmadi olaraq fizioterapiya müalicəsi davam etdirilir. Bununla yanaşı, sözügedən ailənin aztəminatlı olması nəzərə alınaraq ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq üzrə dövlət proqramına da cəlb edilib.



Sözün açığı, ünsiyyətdə olduğum məhdud fiziki imkanlı uşaqlar məndə həyat eşqini daha da alovlandırdı. Onlarla həmsöhbət olub xoş düşüncələrlə geri dönməmək mümkün deyil. 5-10 il bundan öncə valideynləri üçün gözdağı olan bu balaca fidanlar, indi onların fəxarət, qürur mənbəyidir.

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, çox yaxın dövrdə – təxminən, 25 il bundan əvvəl blokada vəziyyətinə salınmış, iqtisadi sahələri iflic olmuş, sabaha heç bir ümidi qalmayan muxtar respublikada sağlam uşaqların belə, oxuması üçün lazımi şərait yox idi. Bu gün isə sağlamlıq imkanları məhdud uşaqlar paytaxtdan 50, 80 kilometr uzaqlıqda yerləşən yaşayış məntəqələrindən distant üsulla təhsillərini davam etdirirlər. Həmin şagirdlər onlar üçün yaradılan bu şəraiti dərindən dərk edir, ölkəmizin gələcək inkişafı üçün öz intellektual səviyyələrini artırmağa səy göstərirlər.

Hazırda distant təhsil sistemindən dünyanın inkişaf etmiş bütün ölkələrində ali təhsil müəssisələrində tədris və imtahan proseslərinin müasir tələblər səviyyəsində təşkili üçün istifadə olunur. Naxçıvan isə bu imkanları dövlət səviyyəsində həm də sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası istiqamətində tətbiq edən çox az diyarlar sırasındadır. Bu sistemin muxtar respublikamızda tətbiqi buradakı hərtərəfli inkişafın və insan amilinə verilən yüksək dəyərin göstəricisidir. Məhz bu addım sağlamlıq imkanları məhdud uşaqların təhsil almaq hüququnu təmin etməklə, onları cəmiyyətin fəal bir üzvünə çevirir. Başqa sözlə, diyarımızda hər kəs üçün bərabərhüquqlu yaşayış təmin edilir. Mən də qürur duyuram ki, sosial vəziyyətindən asılı olmayaraq, hər kəsin qayğısına qalan bir dövlətin gənciyəm!

**Gülcamal TAHİROVA**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

*Nümunəvi ailələr*

# Ömrün 23 iyunu...



*Bu gün muxtar respublikamızda onlarla nümunəvi ailələrimiz var. Bu ailələr arasında hansısa bir sahədə fərqlənənlər də var, ömrünü bir sənətə həsr edib, onu ailəlikcə yaşadanlar da. İstehsalat təcrübəsi ilə seçilənlər də var, əməyi ilə böyük uğurlara imza atanlar da. Elə nümunəvi ailələrimiz də var ki, bu ailələr Vətən torpağı uğrunda canlarından keçən şəhidlərimizin ailələridir ki, onların vətənpərvərliklə dolu həyat yolları hər kəs üçün örnəkdir.*

Silahlı Qüvvələr Günü ərəfəsində belə ailələrdən birinə yollanıb, onun ocağının işığını yandıran yadigarları ilə görüşüb söhbətləşməyi mənəvi borc bildik. Bu, Culfa rayonunun Camaldın kəndinin igid oğlu, bu gün şəhidlik zirvəsindən məhəbbətinə doymadığı Vətənini və ailəsini seyr edən Mirəyyub Seyidovun ailəsi oldu.

Mirəyyub 1966-cı ildə anadan olub. Camaldın kənd orta məktəbində səkkizinci sinfi bitirəndən sonra rayondakı texniki peşə məktəbində dülgərlik peşəsinə də yiyələnib. Əsgəri xidmətini Rusiyada başa vurub, doğma Vətəninə qayıtdıqdan sonra Culfadakı istehsalat kombinatında fəhlə kimi işə başlayıb. Böyük məsuliyyəti, işə can yandırması ilə müəssisə kollektivinin dərin hörmətini qazanıb. Daha sonra isə əmək fəaliyyətini Culfa Rayon Polis Şöbəsində polis serjantı kimi davam etdirib. Sərhədlərimizin təhlükədə olduğu bir vaxtda Mirəyyub burada da fəallıq, canıyananlıq nümayiş etdirib. Gecə-gündüz ona tapşırılan işlərin öhdəsindən layiqincə gəlib, hansı posta göndərilibsə, canla-başla gedib, üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirib. Şərurda, Sədərəkdə erməni hücumlarının qarşısının alınmasında iştirak edib. 1990-cı ildə xüsusi təyinatlı polis nəfəri kimi Sədərəkdə gedən qızğın döyüşlərdə iştirak edib, böyük şücaətlər göstərib. 1992-ci ilin 23 iyununda Sədərək uğrunda gedən döyüşlərdə şəhid olub.

Cəmi üç il birlikdə yaşadığı Süsən xanım onun yoxluğu haqqında böyük ürək yangısı ilə danışır: – Mirəyyubun qəlbi Vətən sevgisi ilə dolu idi. O həm də çılğın təbiətli insan idi. Ermənilərin torpaqlarımıza göz dikməsini çox böyük əsəb və gərginliklə qarşılayırdı. Bu barədə danışanda gözləri sanki qan çanağına dönürdü. İşində isə məsuliyyətli insan idi. Üç il birgə yaşadığımız dövrdə evdə uşaqlar körpə olduqları üçün tez-tez problemlər yaranırdı. Mən bu problemləri yaxın qohumlarla həll edirdim. Mirəyyub isə ona tapşırılan işi yerinə yetirməyincə evə qayıtmazdı. Elə buna görə də daim çalışdığı kollektivin rəhbərliyi tərəfindən əməyi qiymətləndirilirdi. İndi Culfa şəhərində bir küçə və Mirəyyubun təhsil aldığı Camaldın kənd tam orta məktəbi onun adını daşıyır.

Süsən xanıma eşitdiyim andan məni çox mütəəssir edən, həm də səhərdən bəri onun yarasının qaysağını qoparacağından ehtiyatlandığım sualımı birtəhər, çəkinə-çəkinə verdim: – Süsən xanım, evliliyinizin 3-cü ildönümü günü həyat yoldaşınızı itirmək…

– Həmin gün özüm də geyinib kecinmişdim, uşaqların da təzə pal-paltarlarını geyindirmişdim. Səhərdən axşamadək mətbəxdə onun sevdiyi yeməklərdən hazırlayıb süfrə açmışdım. Mirəyyubun yolunu gözləyirdim. Bilirdim ki, gec də olsa, gələcək, çünki həmin günə çox dəyər verirdi. O, hökmən gecəyarı da olsa, gəlib həmin günü bizimlə birgə qeyd etməli idi. Saatlar ötür, o isə gəlmirdi ki, gəlmirdi. Axşam saat 9-10 oldu. Uşaqlar yuxuladılar. Onları yerlərinə qoydum. İçimə qəribə bir narahatlıq doldu. Bilirdim ki, həmin günlər cəbhədə vəziyyət yaxşı deyildi. Ermənilər Naxçıvanla bütün sərhədboyu ərazilərdə münaqişələr yaradır, kəndlərimizə basqınlar edirdilər. Sən demə, mən onun yolunu gözlədiyim anlarda o yaralanıb, qanlar içərisində həyatla mücadilə edirmiş. İnanın, məndə belə bir hiss yaranmışdı ki, sanki indicə onunla bağlı nə isə eşidəcəyəm. Saat 12-yə yaxınlaşır, mən isə tələş içərisində evdə gəzişirdim. Birdən qapı döyüldü. Qohumlarımızdan iki nəfər Mirəyyubun yaralandığı xəbərini gətirmişdi. Ürəyimə gələn başıma gəldi, – deyib, əllərimi dizlərimə çırpdım. Birazdan evliliyimizin 3-cü ildönümü "hədiyyəsini" qapımıza gətirdilər. Bu, Mirəyyubun susqun və soyuq cənazəsi idi. Sevdiyim insanın bir ömür gözlərimin önünə həkk olan və hər dəfə xatırladığımda mənə əzab verən görüntüsü idi. Bunun acısını isə təsəvvür etməyə söz yetməz...

Həmin gündən etibarən sevinc tariximiz olan 23 iyun həyatımızda öz yerini kədərə verdi. Artıq illərdir ki, o günü ailə qurduğumuz gün kimi deyil, həyat yoldaşımın, övladlarımın atasının şəhid olduğu gün kimi anıram.

Mirəyyub şəhid olan vaxt qızları Könül yaşyarımlıq, oğulları Mirqafar isə 10 aylıq imiş. Atalarının üzünü xatırlamayan, xasiyyətini, xarakterini bilməyən bu bacı-qardaşın analarından və yaxınlarından dinlədikləri söhbətlər əsasında qəlblərində bir ata heykəli qurulub. Övladlarının dediklərindən: – Atamız hündürboy, enlikürək, gursaçlı olub. Dostları və iş yoldaşlarından onun həmişə çox vətənpərvər, cəsarətli, igid bir insan olduğunu eşitmişik.

Süsən xanım 1992-ci ilin 23 iyunundan iki körpəsini tək böyütmək məcburiyyətində qalıb. Hər zaman dövlət qayğısı ilə əhatə olunduqlarını minnətdarlıqla qeyd edən bu ana göstərilən dəstəklə, bir də yaxınlarının köməkliyi ilə övladlarını boya-başa çatdırdığını deyir. Süsən xanım uşaqlarına gözəl tərbiyə verib. Onların hər ikisi təhsil alıb. Könül musiqi müəllimidir. Ailə qurub, iki övladı var. Mirqafar isə ali təhsilli iqtisadçıdır. O, atasının yolunu davam etdirir. Culfadakı "N" hərbi hissədə çalışır, böyük övladına da atasının adını verib. Ötən il qələbə sevincini yaşadığımız Günnüt kəndinin azad olunmasında Mirqafarın da əməyi olub. O deyir: – Atamla qürur duyuram. Buna görə də onun torpaqlarımızın azad olunması ilə bağlı arzularının davamçısı olmaq istədim. Söz yox ki, bütün şəhidlərimizin bir gün arzuları reallaşacaq, ruhları sevinəcək. O gün uzaqda deyil. Azad olunan torpaqlarımız Lələtəpə, Cocuq Mərcanlı, Günnüt kimi bir gün də Kərki, Qarabağ, Şuşa, Laçın erməni qəsbkarlarından geri alınacaq. Buna dövlətimiz hazırdır. Hər il iyunun 26-da Azərbaycan Milli Ordusunun yaranması günündə keçirilən paradda dövlət başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyevin çıxışında söylədiyi fikirlər, paradda nümayiş olunan müasir texnikalar, bu yaxınlarda Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirilən döyüş atışlı təlimin möhtəşəmliyi də o günün lap yaxında olacağından xəbər verir.

Süsən xanım Culfa Rayon Rabitə İdarəsində çalışır. Əməksevər bu qadın gözəl ana, həm də qayğıkeş qayınanadır. Gəlini də övladları kimi onun qürurundan ağızdolusu danışır. İndi o, oğlu, gəlini, bir də böyüyü həyat yoldaşı Mirəyyubun adını daşıyan iki oğlan nəvəsi ilə dövlətimiz tərəfindən Culfa şəhərində onlara verilmiş mənzildə Vətən torpaqları uğrunda canından keçmiş bir şəhidimizin çırağını yandırırlar. Bu çıraqdan Culfa şəhərinə süzülən işıq isə hər kəsin qürur hissi duyduğu şəhid Mirəyyub Seyidovun ocağının ünvanını bəlli edir. O ünvan ki daim yad ediləcək, qürur mənbəyimiz olacaq.

Şəhid ocağından ayrılıram. Yolboyu ailə üzvlərinin hər birinin 27 il öncəki itkilərini böyük yanğı hissi ilə yada salmalarını, eyni zamanda onunla fəxr etdiklərini xəyalımda canlandırıram. Süsən xanımla söhbətim zamanı ona da söylədiyim fikirləri yenidən xatırlayıram: Yüzlərlə şəhidimiz var ki, toysuz-büsatsız, övladsız dünyalarını dəyişiblər, nakam, qısacıq bir həyat yaşayıblar – İlhamla Fərizə kimi. Onlardan fərqli olaraq bu gün Mirəyyubun ocağının işığını yandıranlar – Mirqafarla Könül və dörd gül nəvən sənin təsəllilərin deyilmi?..

✍ **Mətanət MƏMMƏDOVA**

*Muxtar respublikada torpaq mülkiyyətçilərinin müasir texnikalar, mineral gübrələr və suvarma suyu ilə təmin edilməsi, onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, eyni zamanda dövlət tərəfindən ayrılmış yardımlar aqrar sektorun kompleks inkişafına səbəb olub. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklər baş verib, istehsal həcmi artıb, məhsuldarlıq yüksəlib. Artıq əhalinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatını yerli istehsal hesabına ödəmək mümkündür.*

# Anbarlara taxıl tədarükü davam edir



Ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılıq müstəsna əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, Naxçıvanda əkinçiliyin vacib sahəsi olan dənli bitkilərin, xüsusilə taxıl və qarğıdalının istehsal həcminin intensiv metodlarla artırılmasına mühüm əhəmiyyət verilir. Əkin sahələrində aparılmış müşahidələr göstərir ki, bu il taxıl zəmilərində bol məhsul yetişdirilib. Əvvəlki illərdən fərqli olaraq taxıl biçininə daha tez başlanılıb. Eyni zamanda məhsulun vaxtında və itkisiz yığılması məqsədilə taxıl biçini kampaniyasına hazırlıq işləri yüksək səviyyədə başa çatdırılıb, sahələrə kifayət qədər texnikalar cəlb olunub.

Artıq "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində sakinlərdən taxıl qəbuluna start verilib. Taxıl tədarükü ilə əlaqədar əvvəlcədən anbarlar, laboratoriya, tərəzilər və digər avadanlıqlar saz vəziyyətə gətirilib. Hazırda cəmiyyətdə əsas diqqət taxıl biçinindən sonra məhsulun qəbuluna yönəldilib. Öyrəndik ki, bu il taxılın alış qiymətləri növlərinə görə artırılıb. Belə ki, arpanın alış qiyməti bir kiloqramı 30, buğdanın 1 kiloqramı 35, qarğıdalının isə 1 kiloqramı 40 qəpik olub. Təsərrüfat sahiblərinin verdikləri taxılın dəyəri nağd şəkildə yerindəcə ödənilir.

Cəmiyyətdən aldığımız məlumata görə, taxılın qəbulu iyunun 8-dən başlayıb və bu günədək anbarlara 470 ton buğda, 320 ton arpa tədarük olunub.

Xatırladaq ki, muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 27 min tondur. Burada, eyni zamanda taxılı qısa müddətə saxlaya bilən, tutumu 20 min ton olan 2 anbar da mövcuddur.

✍ **Səbuhi HƏSƏNOV**

# Voleybol üzrə seminar keçirilib



*Dünən muxtar respublikanın Təhsil Nazirliyi və Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə Naxçıvan şəhər, Babək və Şahbuz rayon ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərini tədris edən 50 müəllimə idmanın voleybol növü üzrə seminar keçirilib.*

Seminarda Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev çıxış edərək idmana göstərilən dövlət qayğısından danışıb, Voleybol Federasiyasının Bakıdan dəvət etdiyi məşqçi tərəfindən fiziki tərbiyə müəllimləri üçün təşkil olunan seminarın məktəblərdə bu idman növünün inkişafına xidmət edəcəyini bildirib.

Seminarda Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının müavini Aydın Mirzəyev "Muxtar respublikada voleybol idman növünün inkişafı" mövzusunda çıxış edib. Sonra isə Bakıdan dəvət olunmuş voleybol üzrə yeniyetmələrdən ibarət ölkə yığma komandasının məşqçisi Xanlar Ələkbərov tərəfindən "Voleybol oyunu zamanı yeni taktiki-texniki qaydalar" mövzusunda seminara start verilib.

Seminarın nəzəri hissəsində məşqçi Xanlar Ələkbərov fiziki tərbiyə müəllimlərinə voleybol komandalarının formalaşdırılması qaydaları haqqında geniş məlumat verib. Voleybol oyununda qəbul edilmiş yeni qaydalara əsasən oyun zamanı texniki fasilələrin sayının azaldıldığı qeyd olunub.

Sonra məktəbin idman zalında yeni taktiki-texniki qaydalara uyğun nümunəvi dərs keçilib, oyunun müdafiə xəttinin gücləndirilməsi qaydaları, oyunçunun rolu və vəzifəsi haqqında müəllimləri maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Surdo-tərcümə vasitəsilə film nümayiş olunub



İyun ayının 21-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kinozalında "Şərikli çörək" filminin eşitmə və danışma qabiliyyəti məhdud şəxslər üçün surdo-tərcümə vasitəsilə nümayişi təşkil olunub. Əsas məqsəd proqramın mətninin jest dili əsasında eşitmə və danışma qabiliyyəti məhdud tamaşaçılara çatdırılmasından ibarətdir.

**Xəbərlər şöbəsi**

# Tətil günlərində işləmək istəyən tələbələrin nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Məşğulluq mərkəzləri tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsini təmin edir.

Tətil günlərində işləmək arzusunda olan tələbələr yaşadıqları ərazi üzrə Məşğulluq Mərkəzinə müraciət edə bilərlər.

**Əlaqə telefonu: 545-32-33**

***Bildiriş***

Naxçıvan şəhərində yerləşən "Seolit" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 419